***Prezident İlham Əliyev Vətən müharibəsi ilə ədalətin bərpa olunmasından, parlaq qələbə əldə edilməsindən sonra ordusu və iqtisadiyyatı acınacaqlı duruma düşən Ermənistana vəziyyətdən çıxmağın yeganə yolunu sülh müqaviləsinin bağlanmasında gördüyünü dəfələrlə xatırladıb, Qarabağın təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərini önə çəkib. Dövlətimizin başçısı ayrı-ayrı çıxışlarında bu istiqamətdə göstərilən bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləyib, Azərbaycanın sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə daim hazır olduğunu diqqətə çatdırıb. Ölkə rəhbəri, həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupunun, birgə komissiyanın tez bir zamanda təşkilinin vacibliyini də dönə-dönə qeyd edib. Prezident İlham Əliyev bütün bu məsələlərlə bağlı konkret fikirlərini Ermənistanın baş naziri Nikol Paşinyanla, habelə ayrı-ayrı dövlət başçıları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri ilə söhbətlərində açıq-aydın vurğulayıb.***

# Azərbaycan regionda sülhün bərqərar olmasına prioritet istiqamət kimi yanaşır




Azərbaycan Prezidentinin bu il aprelin 6-da Brüsselə səfəri, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Ermənistan baş naziri Nikol Paşinyanla görüşləri və əldə olunmuş müsbət nəticələr də dövlətimizin başçısının həmin sülh sazişinin imzalanması istiqamətindəki yorulmaz fəaliyyətinin bariz ifadəsi, respublikamızın milli maraqlarının təmin olunması yönündə gerçəkləşdirdiyi ardıcıl və məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

Yeri gəlmişkən, dövlətimizin başçısının görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni format – Brüssel sülh gündəliyi yaranıb. Xatırladaq ki, ilk üçtərəfli görüş ötən il dekabrın 14-də keçirilib, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüsseldə həmin gündəliyin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları reallaşdırılıb.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan regionda sülhün bərqərar olmasına prioritet istiqamət kimi yanaşır

*(əvvəli 1-ci səhifədə)*

Bu məqamda qeyd edək ki, Azərbaycanla Ermənistan arasında sülh razılaşmasının əsas komponentini ölkəmizin irəli sürdüyü 5 maddədən ibarət təklif təşkil edir. Burada əsas məqam Azərbaycanın ərazi bütövlüyünün şərtləndirilməsidir. Ümumiyyətlə, sülh razılaşmasının əsas komponentində iki dövlət arasında münasibətlərin normallaşması üçün ölkələrin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması məsələsi, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi öz aydın ifadəsini tapıb. Bununla bərabər, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinilməsi qarşıya önəmli vəzifə kimi qoyulub.

Nəhayət, sülh razılaşmasının əsas komponentində dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulmasının, nəqliyyat və digər müvafiq kommunikasiyaların açılması, qurulması, habelə qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın yaradılmasının zəruriliyi diqqətə çatdırılıb.



Onu da deyək ki, sonuncu Brüssel razılaşmasında əldə olunan müsbət nəticələr sırasında ərazilərin minalardan təmizlənməsi, itkin düşmüş şəxslərin tapılması, eləcədə quruculuq işlərində Azərbaycana dəstək göstərməsi də öz əksini tapıb.

Bir daha xatırladaq ki, Brüssel razılaşmasında "Dağlıq Qarabağ" ifadəsi və ya keçmişin qalığı olan ATƏT Minsk Qqrupu (MQ) həmsədrlik institutina istinad da yoxdur. Bu, göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində bu reallığa əsaslanır.

İkinci Qarabağ müharibəsi ilə 30 il davam edən münaqişə həllini tapdığı üçün ATƏT MQ artıq lazımsız təsisata çevrilib, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb.

Göründüyü kimi, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması məsələsinə konstruktiv yanaşıb, hər zaman əsas diqqəti Cənubi Qafqazda postmüharibə vəziyyətinə yönəldərək, Azərbaycanın sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqliyini bəyan edib. Dövlətimizin başçısı regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsinə nail olmağa xüsusi önəm verib. Bu, ölkə rəhbərinin nüfuzlu dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə söhbətlərində də öz aydın ifadəsini tapıb. Məsələn, Prezidentİlham Əliyev bu il martın 31-də ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib: "Artıq Avropa İttifaqı tərəfindən elan edilmişdir ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaqdır. Ümid edirəm ki, bu görüş məhsuldar olacaq. Çünki artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib".

Ölkə rəhbəri bütün çıxışlarında Azərbaycanın üzərində dayandığı beş prinsipin beynəlxalq hüququn normalarını, səmərəli beynəlxalq davranışı əks etdirdiyini xatırladaraq, onların istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləri olduğunu vurğulayıb. Dövlətimizin başçısı fikirlərinə qarşılıqlı şəkildə ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, həmçinin sərhədlərin delimitasiyası ilə Qafqaza sülh gələcəyini əlavə edib: "Bu, Azərbaycanın istəyidir. Azərbaycan Cənubi Qafqazın üç ölkəsi arasında fəal əməkdaşlıq üçün potensialın mövcudluğunu görür. Bu, eyni zamanda, Cənubi Qafqaz ölkələr ilə bərabər, daha geniş region üçün mühüm önəm daşıyır. Lakin bütün bu məsələləri ehtiyatla, həssaslıqla nəzərdən keçirmək və vaxtında həll etmək zəruridir".

Qeyd edək ki, ilk olaraq Azərbaycan tərəfi hələ bir il bundan əvvəl Ermənistanla sülh sazişinin imzalanması təklifini yuxarıda vurğulandığı kimi, ən yüksək səviyyədə irəli sürüb və sazişin əsaslanmalı olduğu konkret prinsipləri səsləndirib. Ermənistan tərəfi isə, təəssüf ki, bu istiqamətdə ciddi, konkret addımlar atmaqdan, əsassız olaraq, müxtəlif bəhanələr gətirməklə, ATƏT-in Minsk Qrupunu bu məsələyə qoşmaqla yayınıb. Bir sözlə, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində respublikamız tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində işğalçı tərəfindən buna qarşılıq verilməyib.

Lakin işğalçı ölkə artıq bu gün Azərbaycanın ən yüksək səviyyədə irəli sürdüyü və sazişin əsaslanmalı olduğu konkret prinsipləri ədalətli və düzgün yol kimi anlamağa başlayıb. Baş nazir Nikol Paşinyan ölkəmizin yekun sülh sazişi imzalanması məqsədilə təklif etdiyi beş şərtin məqbul olduğunu da bildirib. Paşinyan hakimiyyəti çox güman ki, bu məsələdə yenə də gecikməyə, müxtəlif bəhanələrlə vaxtı uzatmağa çalışarsa, rəsmi Bakının yaxın gələcəkdə yarana biləcək yeni situasiyaya uyğun şərtləri ağırlaşdıra biləcəyini başa düşüb. Amma işğalçı bəlkə də bu razılığın əsasında hansısa məkrli niyyətlərini də gizlədib. Çünki 44 günlük savaşdan sonra revanşist məqsədini gizlətməyən Ermənistanın qarşılıqlı olaraq, ərazi bütövlüyünün tanınması, ərazi iddialarından imtinası, sərhədlərin delimitasiya və demarkasiya prosesində beynəlxalq hüquqa əsaslanmağın vacibliyini dilə gətirməsi təbii ki, təəccüb doğurub.

Yuxarıdakı fikirləri yekunlaşdırıb deyə bilərik ki, Azərbaycanın regionda yaratdığı yeni reallıq davamlı sülhün əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyevin bütün çıxışlarında da bildirildiyi kimi, ölkəmizin artıq 5 prinsipdən ibarət sülh təklifi Ermənistana, eləcə də dünya ictimaiyyətinə məlumdur. Bu prinsiplər Avropada, eləcə də bütün dünyada müsbət qiymətləndirilr.

Ekspertlərinin fikirlərinə əsasən, Ermənistan sülh müqaviləsini imzalamağa məhkumdur, çünki işğalçı ölkəyə qalsa, tərəddüdləri ilə bunu başqa istiqamətə yönəltməyə cəhd göstərər. Ancaq Azərbaycanın yaratdığı mövcud reallıq Ermənistanın məhz respublikamızın irəli sürdüyü sülh prinsiplərini imzalamağa, sülh prosesinə qoşulmağa məcbur edir. Əlbəttə, bu, Ermənistan daxilində çətinliklər yaradır və açıq şəkildə müxalifətin pozuculuq fəaliyyətində nəzərə çarpır. Revanşizm Azərbaycana və Türkiyəyə qarşı provokasiyalara əl atmaqdan belə çəkinmir. Hazırda İrəvanda davam edən küçə yürüş və mitinqləri, habelə AŞPA-nın yaz sessiyasında ermənilər tərəfindən Azərbaycana qarşı yönələn təxribatlar da bunu aydın göstərir.

Prezident İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayındakı çıxışında bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasından danışarkən, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və bütün aparıcı beynəlxalq təşkilatların mövqeyimizi dəstəklədiklərini, postmünaqişə reallıqlarını qəbul etdiklərini bildirib. Ölkə rəhbəri bununla bağlı qonşu olan beş ölkə tərəfindən 3+3 formatda əməkdaşlıq formatı yaradıldığını xatırladıb. Qonşu ölkələrin, həmçinin böyük dövlətlərin postmünaqişə reallıqlarını qəbul etdiklərini də diqqətə çatdıran dövlətimizin başçısı bu fikrin təsdiqinin Amerika Prezidenti və Böyük Britaniyanın Baş nazirinin ona göndərdikləri məktublarda da öz ifadəsini tapdığını vurğulayıb. Dövlətimizin başçısı deyib: "Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik".

Prezident İlham Əliyev həmin çıxışında diqqətə çatdırıb ki, hazırda iki ölkənin xarici işlər nazirləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlanıb imzalana bilər. Bundan sonra isə Ermənistanla Azərbaycan arasında diplomatik əlaqələr reallaşar. Ölkə rəhbəri daha sonra deyib: "Biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdən bir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***